# İki bayram qovşağı

Yer üzünə Yeni təqvim ili - 2023-cü il gəlir. Dünyanın bir sıra xalqları hər il təqvimlərin dəyişdiyi dekabrın 31-dən yanvarın 1-nə keçən gecəni böyük sevinc və yeni ümidlərlə qarşılayırlar. İnsanlar Yeni il kimi bayram etdikləri bu əziz gündə deyib-gülür, şənlənir, qonaq gedir, hədiyyələr verirlər. Küçələrdə, mənzillərdə yolkalar bəzədilir, uşaqların səbirsizliklə gözlədikləri Şaxta baba və Qar qız evlərin əziz qonaqlarına çevrilirlər.

Yeni il bayramı ərəfəsində xalqımız başqa bir əziz bayramı-31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü də böyük coşqu ilə qeyd edir. Belə günlərdə milli duyğu və düşüncələrimiz aşıb-daşır, arzu-diləklərimiz sabaha qanad açır. Dünyanın hər yerində soydaşlarımızın fəal iştirakı ilə anamız Azərbaycanın şərəfinə təntənələr qurulur.

Şübhəsiz ki, həmrəylik duyğusu bizi güclü edir, sevincimiz və həyat eşqimizi yüksəldir. Həmin gün dünyanın müxtəlif guşələrinə səpələnmiş soydaşlarımız yenidən bir araya gələrək görülmüş işləri saf-çürük edir, gələcək üçün yeni planlar qururlar.

**Təxmini gözləntilər**

2023-cü il Qara Su Dovşanı və ya Pişik ilidir. Qədim əfsanələrə görə, Dovşan İli şərq simvolları arasında şərəfli yer tutur. Dovşan və Pişik həm də eyni ilin simvoluna çevrilməyi bacaran nadir heyvanlardır. Bu, onların müəyyən mənada oxşar olması ilə izah oluna bilər. İkisi də tüklü, sevimli və yumşaqdır, həm də caynaqları və təhlükəli pəncələri də var. Bundan əlavə, hər ikisi yıxılsa da, heç bir xəsarət almadan yollarına davam edə bilirlər.

Astroloqlar 2023-cü ilin sakit və ahəngdar olacağını hesab edirlər, çünki Dovşan özü mehriban, mülayim, qayğıkeş bir varlıqdır. Mümkündür ki, münaqişə tərəfləri danışıqlar aparmağa başlasınlar və qaynar qarşıdurmalar dayansın. Unutmamalıyıq ki, 2023-cü ildə böyük mübahisələr və kortəbii qərarlarla şansınızı qaçıra bilərsiniz.

Dekabrın 31-dən yanvarın 1-nə keçən gecə ailənizlə birlikdə olmaq çox vacibdir, çünki Su Dovşanı ev istiliyini yüksək qiymətləndirir və bunun üçün sizi mütləq mükafatlandıracaq.

Astroloqların hesablamalarına görə, bu il şansları ən çox gətirəcək bürclər sırasında hava ünsürlü bürclər daha çox şanslıdır.

**Yeni il bayramının tarixi**

Bu bayramın yaranmasının azı 25 əsrlik tarixi var. İlin dəyişməsini bayram etmək adəti ilk dəfə qədim Mesopotamiyada yaranıb. Eramızdan əvvəl IV minilliyin sonunda Şumer, Babilistan, Assuriya kimi bu günümüzə qədər gəlib çatan mədəni irsiylə hələ də bizi heyrətləndirən mədəniyyət mərkəzləri burada təşəkkül tapıb. Tarixçi alimlərin fikrincə, məhz həmin dövrdə burada Yeni ilin gəlişi ilk dəfə bayram edilib. Martın axırında Dəclə və Fərat çaylarında suyun səviyyəsi artanda əkin-biçin işləri başlayarmış. İnsanlar yeni ilin gəlişini də elə o zaman qeyd etmişlər. 12 gün ərzində təntənəli mərasimlər davam edərmiş. Xeyir tanrısı Mərdükün şər qüvvələr və ölüm üzərində hakimiyyəti başlayarmış. Bütün məhkəmə işləri, cəzalar təxirə salınarmış. Həmin dövrə aid gil kitabələrdən biri üzərində yazılmış mətnə görə, bu bayramda "qul ağaya çevrilərmiş". Yeri gəlmişkən, "Karnaval" sözü babil dilindən tərcümədə "gəmi-dəniz" deməkdir. Bu da Mərdükün Dəclədə üzməsilə bağlı ayinlərdən gələn ifadədir. Bayram günlərindən birində Mərdükün dəhşət ilahəsi, ilanbaşlı Tiamatla döyüşü səhnəsi canlandırılarmış. Nəticədə, əlbəttə ki, Mərdükün qalib gələrmiş. Babilistan əsirliyində olan yəhudilər Yeni il bayramı ənənəsini babillərdən öyrənərək sonradan onu yunanlara ötürüblər. Yunanlar vasitəsilə isə bu ənənə Qərbi Avropaya yayılıb.



Başqa bir mənbəyə görə, Qədim Şərqdə hələ İran dövlətinin yenicə yaranmağa başladığı dövrdə iranlıların artıq təqvimləri var imiş. Onlar bilirmişlər ki, ilin bir günü var ki, həmin gün ən qısa gündüz ən uzun gecəylə növbələşir. Və bu gündən sonra həyatverici Günəş səmada getgedə daha çox bərq vurur, təbiət oyanmağa başlayır və həyat cansıxıcı qış - yəni ölüm üzərində qələbə çalır. Qədim hindlilər və farslar müasir təqvimlə dekabrın 22-nə təsadüf edən həmin günü "Günəş qapısı" adlandırarmışlar. Sonralar həmin gün Günəş Tanrısı Mitranın doğum günü kimi qeyd edilməyə başlayır. Möhtəşəm İran dövlətini diz çökdürən romalılar Mitranı da özününküləşdirirlər. Qədim Romada təqvim aylarındakı günlərin sayı müxtəlif idi. Hətta rüşvət verib onları dəyişdirmək də olardı. Lakin bir gün dəyişməz idi. Yeni il həmişə yanvarın 1-i gəlirdi və Mitranın doğum günü - İşığın Qaranlıq üzərində qələbəsi günü də bununla üst-üstə düşürdü.

Əsrlər keçdi. Roma dövləti rəsmi olaraq xristian dövləti kimi tanındı. Və məlum oldu ki, İsa Peyğəmbərin doğum günü də elə dekabrın son günlərinə təsadüf edir. Beləcə bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad gününü özündə birləşdirmiş oldu.

Yanvar (latınca «Yanvarus») qədim Roma ilahisi Yanusun şərəfinə adlandırılmışdır. Qriqori təqvimində ilin 1-ci ayıdır. Qriqori təqvimi 1582-ci ildə qəbul edilmişdir. Rusiyada, I Pyotrun fərmanına əsasən Yuli təqviminə keçilmişdir. Həmin fərmana görə yanvarın 1-i - İsa peyğəmbərin təvəllüd günü ilin əvvəli kimi qəbul edilmiş və XVIII əsr 1701-ci il yanvarın 1-dən başlanmışdır.

1918-ci ildə Sovet Rusiyası hökumətinin başçısı V.İ.Leninin imzaladığı dekretlə Qriqori təqvimi qəbul edilmişdir. Beləliklə, Qriqori və Yuli təqvimləri arasında XX əsrdə 13 günə bərabər olan fərq aradan qaldırılmışdır. 1918-ci il yanvarın 31-dən sonrakı gün fevralın 13-ü hesab edilmişdir. Azərbaycan Respublikasında illərin hesablanması üçün əvvəlki kimi, yenə Qriqori təqvimindən istifadə olunur. Buna müvafiq olaraq, yanvarın 1-i istirahət günü kimi qeyd edilir.

2006-cı ildən başlayaraq, yanvarın 1 və 2-si bayram günləri hesab edilir və iş günü olmayan istirahət günləri kimi qeyd olunur.

**Yolka**

Yeni il bayramını al-əlvan, bərli-bəzəkli şam ağacısız təsəvvür etmək qeyri-mümkündür. Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya - Amerikaya yolkanı burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər il Yeni il bayramında Ağ evin qarşısında bu mərasim keçirilir. Beləcə şam ağacı bütün dünyada məşhurlaşıb.

**Santa Klaus və ya Şaxta baba**

Cəmiyyətimizdə rus dilindən (Ded Moroz) tərcümə edilən Şaxta baba kimi tanınan şəxsin dünyanın müxtəlif ölkələrində fərqli adları var: Sant Nikolas, Nikolas of Mariya, Santa Klaus, Pere Noel, müqəddəs ata Kristmas bunlardan bəziləridir. Yeni İl Bayramını, qış bayramını körpələrin öz doğma babalarından belə çox sevdikləri Şaxta babasız təsəvvür etmək mümkün deyil. Saç-saqqalı tamam ağ, başında qardan papaq olan bu mehriban qocanı dünyanın müxtəlif yerlərində müxtəlif cür adlandırsalar da, bu adlardan ən çox populyar olanı Santa-Klausdur.

Bu obrazın yaranma tarixi əsrlərin dərinliyinə gedib çıxır və onunla bağlı ta qədimdən bəri yaranan əfsanə və rəvayətlər zaman keçdikcə dəyişikliklərə uğrayaraq şəkildən şəklə düşüb. Hazırda dünyada qeyd olunan "Yeni il" bayramının bir çox ənənələri Miladdan qaynaqlandığı üçün Şaxta baba-Santa Klaus obrazının əsli də xristian dünyasında axtarılır.

Xristian dünyasında Şaxta baba Müqəddəs Nikolay kimi tanınır. Provaslav kilsəsi Müqəddəs Nikolayı səyahətçilərin himayədarı hesab edir. Katoliklər isə onu kasıblara və uşaqlara yardım edən müqəddəs hesab edirlər. Müqəddəs Nikolay sonralar Mərkəzi və Şimali Almaniyada Weinachtsmann (alman dilində Weinachten - milad, mann isə kişi deməkdir), İngiltərədə isə Father Christmams - Miladın Atası adlandırılıb. Avropalı mühacirlərlə Birləşmiş Ştatlaradək gedib çıxan Müqəddəs Nikolay burada artıq Santa Klausa çevrilib. Şimali Amerika ədəbiyyatında və təsviri sənətində Santa Klaus öz ağ saqqalı, qırmızı kürküylə 8 maral qoşulmuş arabasında milad gecəsi peyda olaraq sobaların borusundan evlərə daxil olur və sobanın yanından asılmış corabların içinə uşaqlar üçün hədiyyələr qoyur.

Dünyanın hər yerində bütün insanlar Yeni ili eyni ümidlərlə - xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də bayramı hərə öz adət-ənənəsinə uyğun qarşılayır. Avropa ölkəsi olan Fransada Şaxta baba Per Noel - yəni Noel ata adlanır. O, Yeni il gecəsi gəlir və evin balaca sakinlərinin başmağına hədiyyələr qoyur. Böyüklərsə bayram günü daha çox yeyib-içməyi sevirlər. Fransanın şərab ölkəsi olduğunu nəzərə alsaq, vəziyyəti təsəvvür etmək olar.

Bəli, bu gün dünyanın hər yerində, eləcə də, bütün Azərbaycanda da bayram-bayrama qarışıb.

Onu da qeyd edək ki, 31 dekabr - 1 yanvar şənbə və bazara təsadüf etdiyi üçün, Əmək Məcəlləsinə əsasən, yanvarın 3-ü və 4-ü də qeyri-iş günü olacaq. Yəni 31 dekabr və 1 yanvar avtomatik olaraq yanvarın 3 və 4-nə keçirilib. Beləcə, Yeni il bayramına görə 5 gün ardıcıl (31 dekabr, 1, 2, 3, 4 yanvar) iş olmayacaq.

Bəli, bu gün eldə, obada, bütün Azərbaycanda bayram-bayrama qarışıb. Bayramınız, mübarək, əziz dostlar, əziz həmvətənlər! İlləriniz bir-birindən uğurlu gəlsin!

**İlahə RƏHİMOVA.**

# Final yarışı

Qəbələ Rayon İcra Hakimiyyəti və Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Olimpiya İdman Kompleksində rayonun idarə, müəssisə və təşkilatları arasında



ümummilli lider Heydər Əliyevin anım günü"-nə həsr edilmiş xatirə turnirinin finalı və qaliblərin mükafatlandırılma mərasimi keçirilmişdir. Turnirə Qəbələ Rayon İcra Hakimiyyəti, Rayon Polis Şöbəsi, Qəbələ Təhsil Sektoru, Qəbələ Hava Limanı, FHN Şimal-Qərb Regional Mərkəzi, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi, Səfərbərlik və HXÇDX-nin Qəbələ rayon şöbəsi, 9 saylı Ərazi Reyest İdarəsi, Qəbələ ASAN Xidmət, FHN-nin hərbi hissəsi, 10 saylı Ərazi Vergilər İdarəsi və "Xanlar" istirahət mərkəzinin komandaları qatılmışdır. Turnirin final mərhələsində maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən oyunlarda FHN Şimal-Qərb Regional Mərkəzinin komandası 1-ci yeri, "Xanlar" istirahət mərkəzinin komandası 2-ci yeri və Rayon Polis Şöbəsinin komandası 3-cü yeri tutmuşlar. Qalib komandalara, hakimlər heyətinə və turnirdə fərqlənən komandalara kubok və diplomlar təqdim edilmişdir.

Qəbələ rayon Mirzəbəyli kənd sakini **Səmədov Rahib Şiralı oğluna** məxsus SV-007508 nömrəli **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Çuxur Qəbələ kənd sakini **Qaçayev Elman Nəriman oğluna** məxsus AN№458741nömrəli **Əfqanıstan müharibəsi veteranı vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

## İTMİŞDİR

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən Qəbələ rayon Vəndam qəsəbə sakini **Məmmədov Yaşar Ənvər oğluna** məxsus torpağa mülkiyyət hüququna dair JN № 1106, KOD 40600048 saylı **dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Qəbələ" qəzetinin kollektivi redaksiyanın əməkdaşı **Səhrab Umuyevə** həyat yoldaşı

**ELMİRA xanımın**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanasının səhiyyə kollektivi Mıxlıqovaq Tibb Məntəqəsinin müdiri **Orxan Məmmədov**a həyat yoldaşı

**SƏİDƏ xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

"Qəbələ" qəzetinin kollektivi Qəbələ rayon Bum qəsəbə sakini **Səfa Aslanova** qaynanası

**XATİRƏ xanımın**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanasının səhiyyə kollektivi həkim stomotoloq **Səxavət Şükürova** atası

**VAHİDİN**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanasının səhiyyə kollektivi Mərkəzi Xəstəxananın Laboratoriya şöbəsinin laborantı

**MEHPARƏ xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.